# "Azərbaycan COP29-a evsahibliyi etməklə qlobal liderlik missiyasını öz üzərinə götürüb"

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi iqlim dəyişikliyi probleminin həllində dünya ictimaiyyətinin səylərini birləşdirən əlamətdar hadisəyə çevrilə bilər.**



Bunu AZƏRTAC-a açıqlamasında ekoloq, biologiya üzrə fəlsəfə doktoru Fikrət Cəfərov deyib.

O bildirib ki, iqlim dəyişikliyi probleminin həlli, ilk növbədə inkişaf etmiş ölkələrin maksimum iştirakından asılıdır. BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının qəbul edilməsindən 30 ildən çox vaxt keçib və bu konvensiyaya qoşulan tərəflərin 29-cu konfransı keçirilir, lakin real nailiyyətlər çox azdır. Beynəlxalq ictimaiyyət Tokioda (Kyoto protokolu), Parisdə və Dohada keçiriləcək konfransların əsas problemləri həll edəcəyinə və ölkələrin real proqram qəbul edəcəyinə ümid bəsləyirdi. Lakin inkişaf etmiş ölkələr, ilk növbədə ABŞ, Çin, Rusiya və Avropa İttifaqı razılığa gələ bilmədilər.

Bu məsələdə əsas problemin maliyyələşdirmə olduğunu qeyd edən F.Cəfərov deyib: "İqlim dəyişikliyi ilə mübarizədə 100 milyarddan çox vəsait tələb olunur. Bu vəsaitlər artıq iqlim dəyişikliyindən təsirlənmiş və aclıq, yoxsulluq, deqradasiya təhlükəsi altında olan ölkələrdə inkişaf proqramlarının uzunmüddətli maliyyələşdirilməsi üçün vacibdir. Bu problemi həll etmədən iqlim dəyişikliyi proseslərini dayandırmaq mümkün deyil. Alternativ enerji, "yaşıl iqtisadiyyat" və sair üzrə bütün real layihələr qlobal iqlim dəyişikliyi problemini həll edə bilməyəcək".

Tərəflərin konfranslarının əsas hissəsinin inkişaf etmiş ölkələrdə təşkil olunduğunu diqqətə çatdıran ekoloq bunun az effektli olduğunu qeyd edib. Onun sözlərinə görə, bunun da səbəbi inkişaf etmiş ölkələrin qəbul olunmuş qərarların icrası proseslərinin əlaqələndirilməsi və bu prosesə nəzarət edilməsi məsələsində razılığa gələ bilməməsi idi. "İqlim dəyişikliyinə faktiki olaraq heç bir mənfi təsiri olmayan Azərbaycan bu gün iqlim dəyişikliyindən əziyyət çəkən bütün ölkələrin adından çıxış edir və konkret həll yolları təklif edir. "İnkişaf etmiş ölkələr" sırasına daxil olmayan ölkə ilk dəfə olaraq regional deyil, qlobal liderlik missiyasını öz üzərinə götürüb. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal proqramı təmin etmək üçün böyük səylər göstərməyə (həm maliyyə, həm də bəşəri) hazırdır. Konkret nəticələr əldə etmək üçün real imkan var. Məhz bu, böyük və ağır yükü öz üzərinə götürən Azərbaycan Prezidenti İlham Əliyevin xidmətidir. Biz hamımız bir araya gəlib bu təşəbbüsləri dəstəkləməliyik. Biz yalnız birlikdə olaraq iqlim dəyişikliyini dayandıra bilərik", - deyən Fikrət Cəfərov fikirlərini yekunlaşdırıb.

Azərbaycan.- 2024.- 19 sentyabr (№204).- S.13.